iki sahil

*Prezident İlham Əliyev:*

# Bütün azərbaycanlılar öz qədim torpaqlarına qayıtmalıdır



**Dövlətimizin başçısı Yaponiyanın "Nikkei" qəzetinə müsahibəsində də vurğulayıb ki, bizim qaçqın və məcburi köçkünlərimiz işğal olunmuş bütün ərazilərə, o cümlədən Dağlıq Qarabağın ərazisinə, o cümlədən qədim Azərbaycan şəhəri olan Şuşanın ərazisinə qayıtmalıdırlar**

**Bu gün Azərbaycan Ordusu beynəlxalq hüququn bütün norma və prinsiplərinə uyğun şəkildə Ali Baş Komandanın rəhbərliyi altında uzun illərdən bəri hökm sürən tarixi ədalətsizliyi aradan qaldırır, işğal altında olan torpaqların işğaldan azad olunması uğrunda müqəddəs xilaskarlıq missiyasını yerinə yetirməkdədir. Cənab Prezident İlham Əliyev hər zaman bəyan edib ki, Azərbaycan heç bir zaman işğal faktı ilə razılaşmayacaq və torpaqlar mütləq işğaldan azad olunmalıdır.**

Dövlətimizin başçısı əzmli, qətiyyətli siyasətçi, humanist Prezident olduğunu bir daha sübut edir. Bunu görən və çıxılmaz vəziyyətə düşən Ermənistan hakimiyyəti, xüsusən də Paşinyan artıq anlayır ki, Azərbaycanın qarşısında duruş gətirə bilməyəcək. Prezident İlham Əliyev sərsəm və məsuliyyətsiz Ermənistan rəhbərliyinin törətdiyi bu ağır müharibə cinayətlərini bütün dünyaya çatdırır və kəskin ittiham edir. Təsadüfi deyil ki, ölkə Prezidenti İlham Əliyev oktyabrın 21-də Yaponiyanın "Nikkei" qəzetinə müsahibəsində də vurğulayıb ki, Ermənistan rəhbərliyi tərəfindən verilmiş çox səmərəsiz və təhrikedici bəyanatlar, edilmiş hərəkətlər, əslində, danışıqları mənasız etmişdir: **"Çünki danışıqlar masasında əsas mövzu həmişə BMT Təhlükəsizlik Şurasının qətnamələrinə müvafiq olaraq Azərbaycanın işğal olunmuş ərazilərinin boşaldılması idi. Ermənistanın baş naziri "Qarabağ Ermənistandır" bəyan edəndə, Azərbaycanın qondarma "Dağlıq Qarabağ hökuməti" ilə danışıqlar aparmalı olduğunu deyəndə, dinc Gəncə şəhərinə ballistik raket zərbəsi vurmaq əmri verəndə və Azərbaycanın digər şəhərlərinə gündəlik olaraq hücum edəndə, danışıqları aparmaq üçün o qədər də imkan qalmır. Buna görə də biz Ermənistan hökumətinə sübut etməli idik ki, artıq onlar bu cəzasız təcavüzkar addımları ata bilməzlər. Biz onların cəzasını yerində veririk, biz ərazilərimizi azad edirik, demək olar ki, hər gün mən Ermənistanın işğalından azad olunmuş yeni şəhər və kəndləri elan edirəm. Ermənistan döyüş meydanında çox acı məğlubiyyətlə üzləşir."**

Ordumuz qarşısında aciz qalan Ermənistanın baş naziri mülki əhalini hədəfə alıb. Bir tərəfdən, sülh danışıqları aparmaq üçün yalvaran, digər tərəfdən, mülki şəxsləri hədəfə alan, onlara qarşı terror aktları törədən Paşinyanın nasist babasının yolunu davam etdirdiyinə heç bir şübhə yoxdur.

Ali Baş Komandan müsahibədə "Siz ikinci atəşkəsin artıq uğursuz olduğunu, yaxud bitdiyini və döyüşün davam etdiyini deyərdiniz" sualına cavab verərək bildirib ki, atəşkəsə birtərəfli qaydada nail olmaq mümkün deyil: **"Əgər bizə hücum olunursa, biz nəinki özümüzü müdafiə etməliyik, eyni zamanda, əks-hücuma da keçməliyik. Sizə deyə bilərəm ki, onlar ikinci dəfə atəşkəsi pozandan sonra biz Zəngilan şəhərini və bir çox kəndləri azad etdik. Beləliklə, döyüş meydanında nə qədər çox vaxt keçirsə, biz bir o qədər də əraziləri azad edirik. Ona görə Ermənistan hökuməti öz davranışı haqqında ciddi düşünməlidir və əgər atəşkəsin səmərəli olmasını istəyirsə, birincisi, atəşkəsi pozmamaq, ikincisi, artıq işğaldan azad edilmiş əraziləri geri götürməyə cəhd etməmək və işğal olunmuş Azərbaycan ərazilərinin boşaldılması üçün üzərinə ciddi öhdəlik götürməlidir."**

Dövlətimizin başçısı dəfələrlə bəyan edib ki, bizim dinc əhali ilə işimiz yoxdur. Bizim müharibəmiz mülki vətəndaşlarla deyil. Əsgərlərimiz öz ərazilərimizdə, Azərbaycanın ərazi bütövlüyü uğrunda işğalçıya qarşı vuruşur. Hətta Ermənistanın havadarları olan dövlətlər və böyük güclər tərəfindən təzyiqlərə məruz qalan Prezident İlham Əliyev öz prinsipiallığını və qəti əzmini bir daha nümayiş etdirir, mövqeyindən kənara çəkilmir, bu təzyiqlərə mərdmərdanə sinə gərir. Azərbaycanın milli maraqları, tarixi torpaqlarımızın işğaldan azad olunması Prezident İlham Əliyev üçün ən ali dəyərlərdir. Dövlətimizin başçısı müsahibəsində bildirib ki, ermənilər bu əraziləri boşaldacağına dair üzərlərinə ciddi öhdəlik götürməlidirlər: **"Çünki bu, Minsk qrupunun vasitəçiliyi ilə iki ölkə arasında razılaşdırılmış əsas prinsiplərin bir hissəsidir. Əsas prinsiplərdə deyilir ki, işğal olunmuş ərazilər Azərbaycana qaytarılmalıdır, bizim qaçqın və məcburi köçkünlərimiz işğal olunmuş bütün ərazilərə qayıtmalıdırlar, o cümlədən Dağlıq Qarabağın ərazisinə, o cümlədən qədim Azərbaycan şəhəri olan Şuşanın ərazisinə."**

Cənab İlham Əliyevin Yaponiyanın "Nikkei" qəzetinin əməkdaşının müxtəlif suallarına "Azərbaycanın bütün rayonları boşaldılmalıdır. Bütün azərbaycanlılar öz qədim torpaqlarına qayıtmalıdır" cavabları dövlətimizin başçısının əzmli, qətiyyətli siyasətçi, humanist dövlət başçısı olduğunu bir daha sübut edir.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında həmişə sülh tərəfdarı olub. Bu, həm də Azərbaycanın mövqeyidir. Problemin beynəlxalq hüquq normaları çərçivəsində, qan tökülmədən həlli istiqamətində bütün vasitələrdən istifadə edir. Dövlətimizin başçısının bu mövqeyi dünya ictimaiyyəti tərəfindən də dəstəklənir. Ancaq Ermənistan tərəfi təcavüzkar mövqeyindən əl çəkmir, işğal etdiyi əraziləri azad etmək istəmir. Dövlətimizin başçısı Yaponiyanın "Nikkei" qəzetinə müsahibəsində də bu məqamı diqqətə çatdıraraq dedi ki, Ermənistan tərəfi işğal etdiyi Azərbaycan ərazilərini boşaldacağına dair üzərinə ciddi öhdəlik götürməlidir. Çünki bu, Minsk qrupunun vasitəçiliyi ilə iki ölkə arasında razılaşdırılmış əsas prinsiplərin bir hissəsidir. Dövlətimizin başçısı müsahibədə bildirib ki, Minsk qrupu 30 il ərzində heç bir nəticə əldə etmədi. Eyni zamanda, mən dedim ki, biz Minsk qrupunun vasitəçiliyi ilə keçmiş Ermənistan hökumətləri ilə irəliləyişə nail ola bilmişdik. Böyük olmasa da, hər halda irəliləyiş idi. Lakin əgər 30 il ərzində bir ölkələr qrupu nəticə əldə edə bilmirsə, bu, özü hər şeyi göstərir. Həmçinin Minsk qrupunun həmsədrləri BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Bu ölkələrin iştirakı və bu ölkələrin səsverməsi ilə BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının Azərbaycan torpaqlarından tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələrə niyə əməl edilmədiyi sual olunur. Çünki Minsk qrupunun həmsədrləri və daimi üzvlər eyni ölkələrdir. Beləliklə, bu, açıq sualdır."

Bu gün Azərbaycan-Türkiyə qardaşlıq, dostluq və sıx əməkdaşlıq münasibətləri ən yüksək səviyyədə olmaqla bərabər, özünün ən qürurverici anlarını yaşayır. Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Prezident İlham Əliyev "Nikkei" qəzetinə müsahibəsində bununla bağlı bildirib ki, biz Türkiyənin regional məsələlərdə fəal iştirakına hər zaman güclü dəstək veririk: **"Faktiki olaraq, bu iştirak açıq-aşkardır. Türkiyə indi təkcə bizim regionumuzda deyil, Qafqazda deyil, daha geniş coğrafiyada və dünyada mühüm rol oynayır. Bu, reallıqdır və bu, bizim üçün çox yaxşı reallıqdır. Çünki Türkiyə bizim üçün qardaş ölkədir, ən yaxın müttəfiqimiz və dostumuzdur."**

✍ **Orxan Vahidoğlu,**
***"İki sahil"***